

**ŞAHLAR ƏSGƏROV,**
YAP İdarə heyətinin üzvü,
Milli Məclisin komissiyasının sədri

## HEYDƏR ƏLİYEV FENOMENİ HAQQINDA DÜŞÜNCƏLƏR

Müstəqilliyimizin birinci 10-illik yubileyini bayram etdik, indi ikinci onilliyini yaşayırıq. İnşallah, Möhtərəm Prezidentimiz Heydər Əliyev dəfələrlə dediyi kimi, «Azərbaycanın dövlət müstəqilliyi dönməz, əbədi və sarsılmaz» olacaqdır.

Bu illərin ilk dövrlərində biz öz tariximizin həm çətin, həm də şərəfli səhifələrini yaşadıq. Qarabağ və vətəndaş müharibələri, etnik seperatizm, silah gücünə permanent hakimiyyət dəyişmələri və bunun kimi digər proseslər tariximizin çətin və mürəkkəb səhifələrindəndir. Digər tərəfdən uğurlarımız da az deyildir. Çətin dövrlər arxada qalmış, Azərbaycanda müstəqil, demokratik dövlət qurulmuşdur. Bu çətin və şərəfli tariximizi Azərbaycan Prezidenti Heydər Əliyev belə qiymətləndirir:

**«Biz on il böyük yol keçərək, ağır yol keçərək müstəqilliyimizi qoruyub saxlaya bildiksə, bu dövlətin bütün təsisatlarını yarada bildiksə, demək, Azərbaycanın gələcəyi üçün çox əsaslı, çox möhkəm bir təməl qoymuşuq. Biz öz üzərimizə düşən missiyanın *birinci, ən çətin hissəsini* yerinə yetirmişik».**

Güman etmək olar ki, cənab Prezident «missiyanın birinci, ən çətin hissəsini» deyərkən müstəqilliyin qorunmasını və yeni dövlət maşınının qurulmasını nəzərdə tutur. Yəqin ki, Qarabağ düyününün açılması bu missiyasının ikinci hissəsidir.

### Tarixi şəxsiyyət və keçid dövrü

Keçid dövrdə bir ictimai-siyasi quruluş digərinə keçdiyi üçün onun daxili struktur hissələri də uyğun olaraq labüd keçidlərə məruz qalırlar. Azərbaycanda keçid proseslərini çətinləşdirən amillərdən biri ölkənin müharibə şəraitində olması, digəri isə bəzi dünya dövlətlərinin ölkəmizə qarşı ikili standartlara münasibət bəsləməsidir.

**Keçid dövrünün müddəti** haqqında tez-tez suallar eşidilir. Bu müddətlə bağlı hörmətli Prezidentimizin fikri belədir:

**"Kim hesab edirsə ki, yenicə müstəqillik əldə etmiş ölkə, müstəqil dövlət dörd il, beş il içərisində bütün məsələlərin hamısını həll edə bilər - o, çox səhv edir».**



Keçid dövrü - dövlət quruculuğu dövrüdür. Keçid dövrünün müddətinin 10-15 il olması yayılmış fikirdir. Moldovanın sabiq prezidenti, filosof P.Luçinski BDU-da etdiyi çıxışda keçid dövrünün müddətinin 10-15 il olduğunu söyləmişdir.

Keçid dövrünü yaşayan dövlətlə stabil quruluşa malik dövlətlər arasında fərq çox böyükdür. Keçid dövründə ideya mənbəyi liderdir, prezidentdir. Stabil quruluşlarda ideya mənbəyi xalqdır və onun seçilmiş nümayəndələridir. Keçid dövrünü yaşayan dövlətdə daxili siyasət xarici siyasətin, qurulmuş dövlətlərdə isə, əksinə, xarici siyasət daxili siyasətin davamıdır. Qurulmuş dövlətlərdə prezident əsasən öz aparatının (prezident aparatının) ideyalarını, təkliflərini həyata keçirir, qərarlaşdırır. Keçid dövrünü yaşayan dövlətlərdə isə prezident aparatı prezidentin ideyalarını həyata keçirir.

Dövlətin müxtəlif hakimiyyət qolları üçün və cəmiyyətin müxtəlif təbəqələri üçün keçid müddəti də müxtəlifdir. Hakimiyyətin bəzi qolları artıq keçid dövrünü keçib, digərləri isə keçməkdədir. Mənim subyektiv fikrimə görə:

**Prezident üçün keçid dövrü** dövlət maşınını qurmaq müddətidir. Qeyd olunduğu kimi artıq möhtərəm Prezidentimiz Heydər Əliyev bu maşını qurubdur. Bu iş Prezidentimizin **şah əsəri** olmaqla bərabər, yuxarıda qeyd etdiyi kimi onun tarixi missiyasının birinci hissəsidir.

22 sentyabr 2001-ci ildə "Neftçilər günü"nə həsr olunmuş təntənəli mərasimdə cənab prezident dövlət quruculuğu ilə bağlı dedi:

**"Azərbaycanda artıq demokratik, hüquqi, dünyəvi dövlət qurulub, bütün hakimiyyət orqanları yaranıb, iqtisadi, siyasi, hüquqi islahatlar həyata keçir və keçməkdədir".**

**Milli Məclis üçün keçid dövrü** dövlət maşınının işləməsi üçün lazım olan qanunların qəbul edilməsi müddətidir. Artıq Milli Məclis 1500-dən çox qanun və qərar qəbul edibdir ki, bu da dövlət maşınının işləməsi üçün kifayətdir.

**Nazirlər Kabineti üçün keçid dövrü** Azərbaycanın iqtisadiyyatının **inkişafının məntiqini** axtarıb tapmaq müddətidir. Görünür, bu məntiqi axtarıb tapmaq üçün çox vaxt lazımdır. Hökumətimiz alimlərimizin köməyindən istifadə etməlidirlər ki, bu müddət çox uzanmasın. Başqa sözlə, bu müddəti empirik yolla yox, elmi yolla müəyyən etmək lazımdır.

**Əhali üçün keçid müddəti** azadlığın, müstəqilliyin yüksək amal olduğunu dərk etmək müddətidir. Bu isə o deməkdir ki, istənilən vətəndaş milli və dövlət mənafeyini digər mənafelərdən üstün tutmağı bacarmalıdır.

**Müxalifət üçün keçid dövrü** milli mənafeyini, dövləti mənafeni partiya mənafeyindən üstün tutmaq prinsipini anlamaq müddətidir. Müxalifət dövlət mənafeyini, milli mənafeyini qorumağı bacarmalıdır.

Tarix, adətən, keçid dövründə dövlətə başçılıq edərək, yeni dövlət maşınını quran siyasətçiləri yadda saxlayır. C.Vaşinqton, M.K.Atatürk, de Qoll, Adenauer və digərləri belə şəxsiyyətlərdəndir. Yeni dövləti ideyalara sahib olmayan şəxs, keçid dövründə dövlət qura bilməz, dövlətə rəhbərlik edə bilməz və bu səbəbdən də tarixin yaddaşında qala bilməz.

**Heydər Əliyev** Azərbaycan cəmiyyətini liberal və demokratik dəyərlər əsasında dövlət şəklində strukturlaşdıra bildi və artıq **tarixi şəxsiyyətdir.** Heydər Əliyev ona görə tarixi şəxsiyyətdir ki, o, böyük filosofdur, siyasətçidir, içərisindən keçdiyi ictimai-siyasi hadisələrin idarə olunan yox, idarə edən tərəfidir, obyekti yox, subyektidir. Çünki o, yaşadığımız dövrün səciyyəvi cəhətlərini – qloballaşmanı, informasiyalaşmanı, elmin, təhsilin cəmiyyətdə rolunu yaxşı bilir.

### Heydər Əliyev böyük filosofdur

*"Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər kəs özü seçir".*

*Heydər Əliyev*

Təbiətdə gedən proseslərdən fərqli olaraq, cəmiyyətdə gedən proseslər obyektiv qanunlarla idarə olunmurlar. Amma cəmiyyətdə obyektiv dəyərlər və bu dəyərlər arasında obyektiv münasibətlər mövcuddur. Bu münasibətləri filosoflar, siyasətçilər yaradırlar.

Heydər Əliyev cənabları böyük filosofdur, mükəmməl ideya sahibidir.

Heydər Əliyevin siyasətçi-filosof olması onun dəyərli fikirlərində öz əksini tapır. 1980-ci illərdə Şamaxı - İsmayıllı yol ayrıcında Heydər Əliyevin **"Yol - iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir"** kəlamı böyük hərflərlə yazılmışdır. 1987-ci ildə Heydər Əliyev M.Qorbaçov tərəfindən ədalətsiz olaraq istefaya göndəriləndə Azərbaycan hakimiyyəti bu kəlamı poza bilmədi, ancaq "Heydər" və "Əliyev" sözlərini rənglə ağartdı. Yəni müəllifinin adını pozmaqla kəlam **«atalar sözü»** səviyyəsinə gətirildi.

Təhsil siyasətimizdə çoxlu sayda siyasi və ideoloji fənlərdən imtina edilmişdir. Ateizm, tarixi materializm, Sov.İKP tarixi, SSRİ tarixi, Elmi kommunizm fənləri artıq tədris olunmur. Dəyərlərin də-yişdiyi bir dövrdə aydın, şəffaf, istiqamətverici, müdrik kəlamlara ehtiyac böyükdür. Belə kəlamlar ona görə vacibdir ki, o insan fəaliyyətini düzgün istiqamətləndirir. Bütün bu boşluqları cənab Prezident öz fəlsəfi fikirləri ilə doldurur.

Möhtərəm Prezidentimiz Heydər Əliyevin həyatımızın müxtəlif sahələrinə işıq salan fəlsəfi fikirləri, aforizmləri çoxdur. Bu kəlamlar mənəvi dəyər xəzinəmizi zənginləşdirir. Heydər Əliyev tərəfindən deyilmiş bu kəlamların bir qismi "Aforizmlər" (Bakı, 1997, "Azərbaycan Universiteti"), "Müstəqillik yolu" (Bakı, 1997, "Azərbaycan Universiteti") və üç dildə "Quotations, aforizmı, aforizmlər" kitablarında prof. S.Xəlilovla birlikdə tərəfimizdən toplanmış və çap edilmişdir.

Heydər Əliyevin kəlamları məxsusi bir quruluşa, düzülüşə malikdir. Şerdə yaddaşımızın gücü poetik düzülüşə uduzduğu kimi, Heydər Əliyevin fikirlərində fəlsəfi dərinliyinə uduzur. Təkrar etmək üçün əzbərləmək lazımdır.

Heydər Əliyevin həm bu gün, həm də gələcək üçün böyük dəyərə malik bir neçə fikirlərinə, kəlamlarına və aforizmlərinə diqqət yetirək.



Kəlbəcər faciəsi ilə bağlı etdiyi çıxışında cənab prezident belə bir fikir söyləmişdir:

**"Bu faciəni heç zaman unutmaq olmaz. Faciə bizə nə qədər qəm-qüssə, kədər gətirsə də, onu daim yaşatmaq lazımdır ki, bir daha faciə olmasın. Yaşatmaq lazımdır ki, bu faciədən hərə özü üçün ibrət dərsi götürsün. Yaşatmaq lazımdır ki, dünya xalqları bilsin — Azərbaycanın başına nə kimi bəlalar gəlibdir və erməni qəsbkarları, quldurları nə qədər vəhşidirlər ki, Azərbaycan xalqının başına bu cür bəlalar gətiriblər. Ona görə bunu yaşatmaq lazımdır, unutmaq olmaz, nəsildən-nəsillərə ötürmək lazımdır".**

Bu fikirlər həm xalqımızın, həm də bütün yaradıcı insanlarımızın boynuna milli məsuliyyət yükü qoyur: heykəltəraş faciənin heykəlini, rəssam faciənin rəsmini, bəstəkar dərdin musiqisini, şair dərdin poetik deyimini yaratmalıdır ki, millət bu dərdi yaşada bilsin. Çünki, tarix unudulanda təkrar olur. Faciəvi tariximizin təkrar olmaması üçün gərək biz onu unutmayaq. Biz fərdin dərdini yaşadan, kütlənin faciəsini unudan xalqıq. Ərəb oğlu Məcnunun dərdini min ildir ki, yaşadırıq, ancaq Zəngəzurun, Göyçənin, Dərələyəzin dərdini unutmuşuq. Biz qüsurumuza qarşı mübarizə aparmalıyıq. Qarabağ dərdini unutmamalıyıq.

Qanlı Yanvar faciəsi ilə bağlı söylədiyi fikirdə də yuxarıdakı ideya bir daha diqqət mərkəzinə çəkilir:

**«Xalqımız o günü heç vaxt *unutmayacaqdır*. Çünki o, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildi, bu bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır».**

Əgər fərd başqa bir şəxs yolunda ölürsə, o, cəsurdur, igiddir. Əgər fərd kütlə yolunda ölürsə, o, qəhrəmandır. Bu səbəbdən də prezidentimiz millət yolunda canını qurban verən insanları qəhrəman adlandırır.

**"Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayar və onları qoruya bilərsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar".**

Deməli, ölkənin qüdrətli olması üçün vətəndaşlar öz hüquqlarını anlamalı və qorumağı bacarmalıdır. BMT-nin sabiq baş katibi Butros Qali 1994-cü ildə Bakıda olarkən söyləmişdir: **"İnkişaf - fundamental insan hüquqları deməkdir".** Bu iki kəlamın vəhdətini müstəqil dövlətdə **firavan yaşamağın düsturu** hesab etmək olar.

Bu səbəbdən də möhtərəm prezidentimiz Heydər Əliyevin sədrliyi altında hazırlanmış Konstitusiyada vətəndaşlara lazım olan hüquq və azadlıqlar verilmişdir ki, Azərbaycan dövləti qüdrətli bir dövlətə çevrilsin.

Yeni cəmiyyətdə təhsilin rolu ilə bağlı cənab prezident deyir:

"Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərə nəyi və necə öyrətməyimizdən asılı olacaq".

Bu fikir aforizmdir. Həm bu günə, həm də gələcəyə aiddir. Həm bizim ölkə üçün, həm də istənilən ölkə üçün düzdür. Gənclərə o fənləri öyrətməliyik ki, gənclər həm bilikli, həm də vətənpərvər böyüsünlər.

Müxalifətin cəmiyyətdə yeri və müxalifətə münasibət haqqında cənab prezidentin fikri belədir:

**"Azərbaycanda siyasi plüralizm varsa, deməli - siyasi müxalifət olmalıdır. Siyasi müxalifətin olması hər bir dövləti həm totalitarizmdən xilas edər, həm də dövlət siyasətinin aparılmasında dövləti daha da sayıq saxlayar".**

Bu fikir Məhəmməd peyğəmbərin **"Mənim hümbətimin müxalif fikir söyləməsində rəhmətlik vardı"** - fikri ilə həmahəngdir.

**"Bizim hamımızın bir Vətəni var. Bu Azərbaycandır. Hamımız bir torpaqda yaşayırıq — Bu Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər bir guşəsi bizim üçün müqəddəsdir".**

Bu kəlam bir çox cəhətdən dəyərlidir. Əvvəla, o birləşdirici xüsusiyyətə malikdir. İkincisi, harada doğulmağımızdan asılı olmayaraq, hər bir azərbaycanlı üçün torpağımızın hər guşəsi Vətəndir və bu torpaq müqəddəsdir. Bir atalar sözündə deyilir: **"Əmanətə xəyanət etmək olmaz"**. Torpaq bizə atalarımızdan, atalarımıza da öz atalarından, onlara da öz atalarından əmanətdir. Deməli, torpaq bizə nəsillərin əmanətidir. Bir nəfərin əmanətinə xəyanət etmək olmazsa, nəsillərin əmanətinə heç olmaz. Güman edirəm ki, prezidentimiz **"torpaq müqəddəsdir"** deyəndə onun nəsillərin əmanəti olduğunu deyir. Müqəddəslər satılmaz, can-başla qorunar.

**"Bizim ziyalıların, mədəniyyət xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var".**

Keçid dövründə siyasətçiyə, müharibə şəraitində sərkərdəyə ehtiyacımız olduğu bir zamanda hörmətli prezidentimiz cəmiyyətdə ziyalıların rolunu onlardan da yüksəkdə tutur. Azərbaycan qarşısında xidməti olanların yubiley gecələri təşkil olunur və bu gecələrin hamısında özü iştirak edir: S.Bəhlulzadə, C.Məmmədquluzadə, A.Məlikov, L.Vəkilova, M.Araz, M.İbrahimbəyov, Ə.Vahid, Bülbül, Vəli Axundov, Y.Məmmədəliyev, B.Vahabzadə və başqalarının yubiley gecələrini göstərmək olar.

İnsan yaddaşının selektiv olduğu elmə məlumdur. 1988-ci ildən bəri adlarını əhalinin yaddaşına əməyi, biliyi, yaradıcılığı, qəhrəmanlığı ilə yox, meydanlardakı ritorik çıxışları ilə yazanları yaddaşlardan silmək üçün və onların yerinə görkəmli ziyalıların adlarını yazmaq üçün belə yubileylərin keçirilməsinin vacibliyi inkar edilməzdir.

Düşünürəm ki, sadalanan bu bir neçə fikir Heydər Əliyevin böyük siyasətçi olması ilə yanaşı, həm də **böyük filosof** olmasına sübutdur.

## Heydər Əliyev böyük siyasətçidir

*"Siyasətçi subyektiv hisslərə qapılmamalıdır. Xalqın taleyi emosiyadan qəlbidə durmalıdır".*

*Heydər Əliyev*

Heydər Əliyevin qeyri-adi siyasi tərcümeyi-halı vardır. Sov.İKP MK Siyasi Bürosunun üzvlərinin heç birinə onun yaşadığı rəngarəng tərcümeyi-hal qismət olmamışdır.



Bunu onun dünyada gedən prosesləri və Sovet dövlətinin mahiyyətini mükəmməl bilməsi ilə izah etmək olar. Əvvəllər bu dövlətə sidq ürəkdən qulluq etmişdir. Sonralar Sov. İKP sıralarından çıxmış (19.07.91) ilk ən yüksək ranqlı kommunist olmuşdur. İkinci dəfə Azərbaycana hakimiyyətə qayıdaraq, Novet dövlət maşınının demontajını başa çatdırdı və onun yerində liberal-demokratik əsasıamıa müasir dövlət maşını qurmuşdur.

Dövlət quruculuğuna başlamazdan qabaq prezident Heydər Əliyev ölkəni böhranlar sistemindən çıxardı, siyasi stabillik yaratdı. Silah gücünə hakimiyyətə gəlmək praktikasına son qoydu. Görülən işlərin hamısını sadalamaq mümkün olmadığından, ancaq bəzilərini yada salaq:

-ölkəni tərk etmiş prezident Əbülfəz Əliyevə etimadsızlıqla bağlı xalqın rəyi soruşuldu;
-vətəndaş müharibəsinin qarşısı alındı;
-Azərbaycanın parçalanmasının qarşısı alındı;
-yeni prezident seçkiləri keçirildi və xalqdan mandat alındı;
-ordu quruculuğuna diqqət artırıldı;
-təcavüzkar Ermənistan ordusunun irəliləməsi dayandırıldı;
-atəşkəsə nail olundu;
-"Əsrin müqaviləsi" imzalandı;
-Konstitusiya qəbul olundu;
-iqtisadiyyatda böhran dayandırıldı;
-çoxpartiyalılıq əsasında parlament formalaşdı;
-dövlət quruculuğuna başlandı;
-torpaq Qanunu qəbul edildi və torpaq əhaliyə paylandı və s.

Bu hadisələr sanki naxış kimi sıraya düzülüb və onların yerini dəyişmək mümkün deyildir. Yəni 3-cü ilə 8-ci, 7-ci ilə 12-ci hadisələrin yerini dəyişsək, naxış pozular, bunun nəticəsində bugünkü Azərbaycan başqa cür olardı.

Heydər Əliyev tərəfindən hadisələrin, proseslərin, tarixi faktların düzülüşündən bəhrələnərək belə bir fikir söyləmək olar ki, **siyasət — hadisələrin, proseslərin, olayların, tarixi faktların öz xalqının xeyrinə (naxışla) sıraya düzülməsidir. Siyasətçi isə bu işin öhdəsindən gəlməyi bacaran şəxsdir.** Siyasətçi dörd ölçülü fəzada fəaliyyət göstərməyi bacarmalıdır. Onun üçü məkan, biri isə keçmişdən gələcəyə gedən zamandır. Dörd ölçülü fəzada uğurla fəaliyyət göstərmək, üadisələri, prosesləri görə bilmək, ölçə bilmək, çəkə bilmək və onu sıraya düzmək, dəyərləndirə bilmək üçün siyasətçi bəzi nadir, qeyri-adi insani keyfiyyətlərə: mükəmməl biliklər sisteminə və informasiyaya, fenomenal yaddaşa, tükənməz enerjiyə, uzaqgörənliyə, düzgün qərar qəbul etmək səriştəsinə və digər ali keyfiyyətlərə malik olmalıdır. Bu cür çətin şərtləri ödəyən şəxsiyyətlərin sayı şübhəsiz ki, ölkədə tək-tək olur.

Bir Şərq mütəfəkkirinin fikrincə: **"Sevgili bəndəsinə yüksək insani keyfiyyətlər bəxş etmək cənab Haqqa zor gəlməz"**. Heydər Əliyev belə sevilən bəndələrdəndir.

Heydər Əliyevin şəxsiyyəti timsalında yuxarıda sadalanan ali keyfiyyətlərin bəzilərini diqqət mərkəzinə çəkək:

**Uzaqgörənliyi.** Uzaqgörənlik siyasətçi üçün ən zəruri keyfiyyətlərdəndir. Bu keyfiyyət hər siyasətçiyə nəsib olmur. Bu səbəbdən də uzaqgörən siyasətçilər az olurlar. Heydər Əliyev isə çox uzaqgörən siyasətçidir.

Heydər Əliyevin uzaqgörənliyini sübut edən misallar çoxdur. Naxçıvan MR Ali Məclisində 21.11.90-cı il tarixdə etdiyi çıxışında Heydər Əliyev deyir:

**"Mənim yaxşı yadımdadır. SSRİ Ali Sovetinin sessiyası idi. Mən də hələ SSRİ Ali Sovetinin deputatı idim. Azərbaycan Ali Sovetinin keçmiş sədri Xəlilovla orada görüşdüm. Mən ona dedim ki, siz nə edirsiniz orda? Dağlıq Qarabağ əldən getdi. Siz onu niyə əldən verdiniz? Mənim söhbətim 1988-ci il iyulun 18 –də olmuşdur. ...o mənə deyir "Əşi, sən nə danışırsan, Dağlıq Qarabağ bizim əlimizdədir və əlimizdə də olacaqdır".** (bax: "Qayıdış" səh.84, Bakı, 1996).

15 il öncə Azərbaycana rəhbərlik edənlərin, demək olar ki, hamısı Xəlilov kimi düşünürdü. Heydər Əliyev kimi düşünən təkcə bir nəfər idi. O da Heydər Əliyevin özü idi.

Azərbaycan Respublikası Ali Sovetinin 5.02.91 tarixli birinci sessiyasında etdiyi çıxışında o, Sovet İttifaqında və Azərbaycanda mövcud vəziyyəti obyektiv qiymətləndirərək söyləyir:

**"Ölkə, sovet cəmiyyəti, dövlət üsul-idarəsi artıq bir neçə ildir ki, siyasi və iqtisadi böhran içindədir. Millətlərarası münasibətlər gərginləşib, *Sovet İttifaqı dağılmaqdadır*".**

Heydər Əliyev həm Qarabağın getdiyini, həm də SSRİ-nin dağılmaqda olduğunu öncədən görürdü və bunları açıqca deyirdi. Yazıqlar olsun ki, xalqa rəhbərlik edənlər bu səsi eşitmirdilər.

Heydər Əliyev imperiyanın dağılacağından danışanda Azərbaycan rəhbərləri bu imperiyaya böyük ümid bəsləyir və bu səbəbdən də siyasətlərini düz qura bilmirdilər.

"Komsomolskaya Pravda" qəzeti 1990-cı il məqalələrinin birində Heydər Əliyevin Azərbaycanın müstəqil olacağını əvvəlcədən gördüyünü üç arqumentlə əsaslandırmışdır. Birinci, Azərbaycanda güclü sənaye-energetika kompleksi yaratmışdır. İkinci, Moskvanın istəyinin əksinə olaraq, 1972-ci ildə Naxçıvanski adına hərbi orta məktəb açmışdı. Üçüncü, talantlı gənclərin ölkənin adlı-sanlı universitetlərinə müsabiqəsiz qəbulunu təşkil etmişdi.

Heydər Əliyevin Azərbaycanın müstəqilliyini əvvəlcədən gördüyünü Sovet İttifaqının keçmiş rəhbərlərindən biri olan N.Baybakov da söyləmişdir. Onun dediyinə görə, Heydər Əliyev Moskvanın başını üzüm və şərabla qataraq nefti müstəqil Azərbaycan üçün saxlamışdır. Bu fikirləri əsas götürərək N.Baybakov sonralar deyir:

«Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram».



**Düzgün qərar qəbul etmək səriştəsi.**

Siyasətçi üçün düzgün qərar qəbul etmək çox vacibdir. Bir neçə dəfə mətbuatda açıqladığım formulaya görə qəbul edilmiş **qərarın xətası** (Q) ilə həmin hadisə ilə bağlı düşünmə zamanının (t) hasili sabit bir kəmiyyətdir:

Q. ç = const

Düşünmə zamanı az olduqda qərarın xətası çox böyük olar və tərsinə.

Bu formulaya görə ancaq Cənab Haqq xətasız qərar qəbul edir. Peyğəmbərlərin qəbul etdiyi qərarın xətası çox az olduğundan min illərlə doğrudur. Ağıllı insanların qərarının xətası az, müdrik insanların ki, isə daha az olar. 2001-ci il 11 sentyabr hadisəsi ilə bağlı çox qısa bir zaman kəsiyində Heydər Əliyev çox düzgün qərar qəbul etdi və antiterror koalisiyasına qoşuldu. Ancaq **nadir siyasətçilər** qısa zaman kəsiyində düzgün qərar qəbul edə bilərlər. Yada salmaq yerinə düşər ki, QKÇP ilə bağlı A.Mütəllibov qısa zaman müddətində çox səhv qərar qəbul etdi və xeyli nüfuzdan düşdü.

Möhtərəm Prezidentimiz Naxçıvanda MEA-nın filialının açılması barədə 2002-ci ildə qəbul etdiyi düzgün qərar, Naxçıvanı, həm də Azərbaycanı ağlagəlməz gələcək avantürasından qoruyan müdrik və siyasi bir qərardır.

**Cəsarətliyi.**

Lissabon zirvə görüşündə yekun sənədə veto qoyacağını bəyan edən Heydər Əliyev beynəlxalq münasibətlər tarixində analogiyası olmayan addım atdı. ATƏT-in sədri Kotti, S.Dəmirəl, V.Çernomırdin, A.Qor və digər liderlərlə **"əsrə bərabər bir gecə"** yaşayaraq danışıqların sonunda Azərbaycan həqiqətlərinin ATƏT sənədlərində əks olunmasına və onun beynəlxalq aləmdə tanınmasına nail oldu. O gecə Azərbaycan ətrafında yaradılmış informasiya blokadası yarıldı, ATƏT-ə üzv olan dövlətlərin hamısı başa düşdü ki, Ermənistan **təcavüzkar,** Azərbaycan **təcavüzə məruz qalan** dövlətdir. O gecə xeyir şərə qalib gəldi. Bu gün AŞ-da və digər beynəlxalq qurumlarda qazandığımız uğurların bünövrəsi o gecə qoyuldu. Çox təəssüf ki, bu nəhəng addım nəinki cəmiyyət, heç mütəxəssislər tərəfindən axıra qədər hələ dərk edilməyibdir. Bu cəsarətli addımın dərk edilməsinin, görünür zamana ehtiyacı vardır. Lissabon sammitindən sonra siyasi hadisə və proseslərin Azərbaycanın ziyanına işləməsi dayandı.

Azərbaycan SSR Ali Sovetinin 30 avqust 1991-ci il tarixli sessiyasında "Azərbaycanın Müstəqillik Bəyannaməsi" ilə bağlı deputatlara, xalqa keçmişdə buraxılmış səhvləri **cəsarətlə** etiraf etdi:

"Mən Azərbaycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm. 28 aprel inqilabını ömrüm boyu tərənnüm etmişəm və mən tam qətiyyətlə deyirəm, 28 apreldə Azərbaycan işğal olunub. Əgər biz bunu qeyd etməsək, yenə də xalqın qarşısında ikiüzlü olarıq".

Məlumdur ki, xalq onun tərəfini saxlayan cəsarətli insanları çox sevir.

Heydər Əliyevə xalq məhəbbətinin kökləri həm də onun ali siyasi və insani keyfiyyətlərindən bəhrələnir. Heydər Əliyevi xalqa sevdirən bəzi fərdi keyfiyyətləri tezislər şəklində sadalayaq:

**Bizim demək istədiyimizi bizdən yaxşı deyir**;

**Bizim etmək istədiyimizi bizdən yaxşı edir;**
**Güclü məntiqə, yaddaşa və biliklər sisteminə malik olduğundan çıxışlarında özünüinkara, özünütəkzibə rast gəlmək mümkün deyil.**

**Qurucudur.** Xalq Heydər Əliyevin tükənməz enerjiyə və yaradıcı potensiala malik olduğunu hələ Sovetlər dövründə respublikaya rəhbərlik etdiyi, zavodlar, saraylar, mikrorayonlar saldığı zamandan bilir. **Yeni Azərbaycan dövləti onun qurduğu şah əsəridir.**

**Azərbaycanlı müsəlman üçün Sov.İKP MK Siyasi Bürosuna üzv seçilmək mümkün olmayan bir işdir. O, bunu mümkün etdi.**

Yazıya bağlılıq onun ən ali keyfiyyətlərindəndir. İnanıram ki, gələcək nəsillər Heydər Əliyevin hər bir çıxışını asanca əldə edə biləcəklər və qürur hissi ilə oxuyacaqlar.

Heydər Əliyev cənablarının Azərbaycan cəmiyyətinin müxtəlif müstəqil sosial institutları tərəfindən təsis edilmiş **"Mətbuatın dostu"** adına layiq görülməsi və ANS Müstəqil Yayım, Media Şirkəti və Çingiz Mustafayev adına Fondun keçirdiyi sorğu nəticəsində **"2002-ci ilin adamı"** elan edilməsi bəyan edilmiş şərtlərlə yanaşı, həm də onun demokratikliyinə verilən qiymətdir. Yazıqlar olsun ki, keçid dövrünü yaşayan Azərbaycanda, şəxsiyyətin zəifliyi ona demokratik, qüvvəliliyi isə avtoritar imic yaradır.

Ancaq bunu da qeyd etmək lazımdır ki, əla insani keyfiyyətlərin çoxu uzun müddətli gərgin əməyin, özünə nəzarətin və özünə qalib gəlmənin hesabına inkişaf edir və formalaşır.

Heydər Əliyev dühasının qüdrətinə inanan xalqımız əmindir ki, yer kürəsinin bətnində ədalət potensialı varsa, o, həmin potensialdan Azərbaycan dövlətinin xeyrinə uğurla istifadə edəcəkdir.

## Heydər Əliyev YAP-ın banisi və yaradıcısıdır

*"Partiyanın adı onun siyasi xəttini, siyasi prinsiplərini, siyasi strategiyasını, perspektivini əks etdirməli, buna münasib olmalıdır".*

***Heydər Əliyev***

Çağdaş dövrümüzdə siyasiləşən, partiyalaşan Azərbaycanda siyasətçi fəaliyyətinin prioritet istiqamətlərindən biri də siyasi partiya yaratmaqdır.

Ölkəmiz 1990-cı illərin əvvəllərində öz tarixinin ən mürəkkəb və ziddiyyətli dövrünü yaşayırdı. Bu cür ziddiyyətlərlə və təzadlarla dolu ictimai-siyasi, iqtisadi-mədəni vəziyyət ətrafında müzakirələr ölkənin problemlərini həll edə biləcək yeni siyasi qüvvəyə ehtiyac olduğunu gündəmə gətirdi. Bu səbəbdən də YAP tarixi zərurətdən yarandı.

Azərbaycanın böyük oğlu Heydər Əliyevin siyasi təcrübəsindən bəhrələnmək üçün 91 ziyalı ("Səs", 16.10.92) onun rəhbərliyi altında yeni bir siyasi partiya yaratmağa icazə verməsini xahiş etdi.



Beləliklə, YAP 21.11.92-ci ildə Naxçıvanda təsis konfransını keçirdi və Heydər Əliyevi özünə sədr seçdi.

Partiyanın həyatında mühüm əhəmiyyətə malik digər tarixi günlər çoxdur. Bunlardan bir neçəsini yada salaq:

9.06.93. **Qayıdış günü.** Bu gün YAP sədri Heydər Əliyev Naxçıvandan Bakıya qayıtdı.

15.06.93. **Qurtuluş günü.** YAP sədri Heydər Əliyev respublika parlamentinin sədri seçildi.

3.10.93. Heydər Əliyev Azərbaycan Respublikasının **prezidenti** seçildi.

10.10.98. Yeni Konstitusiya əsasında Heydər Əliyev respublikanın **prezidenti** seçildi.

21.12.99. YAP-ın I qurultayı çağrıldı. Heydər Əliyev yenidən partiyanın sədri seçildi.

21.11.2001-ci ildə isə YAP-ın II qurultayı çağrıldı. İlham Əliyev sədrin birinci müavini seçildi.

2002-ci ilin noyabrında YAP-ın yaranmasının 10 illik yubileyi qeyd olundu. H.Əliyev yubileydə çıxış edib partiya və dövlət quru-culuğu ilə bağlı fikirlərini və tövsiyələrini söylədi.

Beləliklə, Heydər Əliyev Azərbaycan üçün yeni bir partiya yaratdı və bu partiyanın 10 illik yubileyində dedi:

**"Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır".**

## Heydər Əliyev fenomeni obyekt-subyekt kontekstində

*Respublikamız artıq böyük bir dövlətdir. Bu dövləti biz öz gücümüzlə, vətənpərvər insanların gücü ilə qoruyuruq və qoruyacağıq».*

***Heydər Əliyev***

Son iki yüz illik tariximizdə Azərbaycana rəhbərlik etmiş şəxslər ölkədə gedən ictimai-siyasi proseslərdə çox vaxt idarə olunan, passiv tərəf olmuşlar. Bu səbəbdən də Azərbaycan xalqı uğursuzluqlarla qarşılaşmış, Azərbaycanın torpaqları zaman-zaman azalmışdır. 1813-cü ilə qədər ölkəmizin ərazisi 410 min kv.km olmuşdur. Azərbaycan ikiyə bölündüyü zaman Rusiya əsarəti altındakı Şimali Azərbaycanın sahəsi 130 min kv.km olmuşdur. 1918-ci ildə ADC qurulduğu ərazi 114 min kv.km olmuşdur. 1920-ci ildən 1991-ci ilə kimi Az. SSR-in ərazisi azalaraq 86,6 min kv.km olmuşdur. Sovetlər zamanında Moskvanın, Sov.İKP-nin dəstəyi ilə Azərbaycan torpağının təqribən 28 min kv.km-i Ermənistan tərəfindən, sözün əsl mənasında, **oğurlanmışdı.** Dünyada torpağı oğurlanmış yeganə xalq, yəqin ki, bizik. Bu torpaq Dağlıq Qarabağın ərazisindən təqribən 6 dəfə çoxdur. Bu itkiyə qarşı mübarizə aparmaq əzmimiz olmamışdı. Sanki millət yuxulu olmuşdur. Bu yuxululuğun əsas səbəbini millətin

təhsilsiz olması və düşünən təbəqəsinin olmaması ilə izah etmək olar. Beləliklə, son iki yüz ildə tarixin təkəri Azərbaycan xalqının ziyanına fırlanmışdır.

Azərbaycan Respublikası Ali Sovetinin 5.02.91-ci il tarixli birinci sessiyasındakı çıxışında Moskvanın Azərbaycana qarşı ədalətsiz mövqeyini deputat H.Əliyev belə ifadə etmişdi:

**"Biz 1922-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublika başqa müttəfiq respublika tərəfindən təcavüzə məruz qalmayıb. Bu xırda məsələ deyil, bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır".**

Ancaq 1993-cü ilin ortalarından bəri Azərbaycan Prezidenti Heydər Əliyev öz nəhəng intellektual potensialı ilə Azərbaycanda cərəyan edən hadisələri cilovlayaraq, idarə edərək, onları Azərbaycan xalqının mənafeyi istiqamətinə yönəldə bilmişdir. Azərbaycanda və onun ətrafında gedən bütün ictimai-siyasi proseslərdə Heydər Əliyev idarə olunan tərəf kimi yox, əksinə, idarə edən tərəf kimi (subyekt kimi) çıxış edir. Başqa sözlə, son 200 il əleyhimizə fırlanan tarixin təkərini dayandıraraq onu Azərbaycanın xeyrinə fırlanmağa məcbur etmişdir. Dağlıq Qarabağdan 6 dəfə çox torpağı bizdən göz qırpımında "oğurlayan" ermənilər artıq 14 ildir ki, dünya dövlətlərinin çoxunun dəstəyi ilə Dağlıq Qarabağı bizdən qopara bilmirlər. Ona görə yox ki, onlar bu işdə səfərbər deyillər. Yox, əvvəla, biz yuxudan ayılmışıq və kifayət qədər təhsil səviyyəmiz var. İkincisi də, H.Əliyev Azərbaycanda gedən ictimai-siyasi prosesləri düzgün idarə edir.

Heydər Əliyev fenomenal şəxsiyyət olduğundan onun şəxsiyyəti psixoanalitiklərin, alimlərin, ziyalıların, tədqiqatçıların, sənət adamlarının diqqət mərkəzində durur. Onun siyasi-psixoloji portreti çəkilir. Onun haqqında kitablar yazılır, filmlər çəkilir.

H.Əliyev haqqında Vaqif Mustafayevin çəkdiyi **"Bir həsədin tarixi"** filmi beynəlxalq uğur qazanmışdır. Bu uğur əsərin bədii səviyyəsi ilə bərabər, həm də Heydər Əliyev şəxsiyyətinə beynəlxalq hörmətin təzahürüdür. Bu haqda V.Mustafayev "Yeni Azərbaycan" qəzetinin 15.01.03-cü il tarixli sayında söylə-yir ki, "Bir həsədin tarixi" dünya kino və televiziya tarixində ilk nümunədir ki, hansısa ölkənin rəhbəri haqqında film festivala gedib mükafat alıb. Və Yekaterinburqda və Moskvada bəlli oldu ki, Rusiya Qorbaçovu dəstəkləmir. Rusiya bir qəhrəman kimi H. Əliyevi alqışladı.

## Heydər Əliyev fenomeni şəxsiyyət-cəmiyyət kontekstində

*"Söz ilə əməl arasındakı boşluq, siyasi rəhbərlik ilə xalq arasında uçurum yaradır".*

***Heydər Əliyev***

Xəlil Rza Ulutürkün Heydər Əliyevlə bağlı fikirləri şəxsiyyətin şəxsiyyət haqqında fikirdir. Fikir isə belədir:



*"20 ocaq 1992. Naxçıvana gəlmişəm ki, əziz bir insanı yaxından görüm. Millətinə məhəbbətdən günəş kimi qızğın və bərəkətverici, düşmənə nifrətində arslan təki cəsur, qurub-yaratmaq elmində memar məharətli, diplomatiya fənnində bütün dövlət xadimlərindən uzaqgörən və müdrik, dostluqda, ülfətdə hədsiz həssas, diqqətli, ülvü Heydər Əlirza oğlu Atatürkümüzü yaxından müşahidə edim, konuşum nəfəsi ilə isinim".*

91-lər hərəkatının Heydər Əliyevə məktubla müraciəti də şəxsiyyətlərin şəxsiyyətə müraciəti idi. Çünki onların sırasında rəhmətlik Ziya Bünyatov, Xəlil Rza Ulutürk, S.Musayev, F.Maqsudov kimi görkəmli ziyalılarla bərabər, hörmətli Ö.Eldarov, M.Ələsgərov və onlarla digər dəyərli insanlar da var idi.

**Şair Məmməd Aslan 11 aprel 2000-ci ildə Heydər Əliyevə ünvanladığı məktubda onun söz xiridarı olmasını və yaradıcı adamlara münasibətini belə qiymətləndirir:**

*«Möhtərəm Heydər Əlirza oğlu!*

*...Mənim yaradıcılığımın 40 illiyi münasibətilə "Şöhrət" ordeni ilə təltif olunmağıma fərman verməyinizi və qələmə aldığınız əhatəli və hərtərəfli təbrik məktubunuzu Sizin yaradıcı adamlara böyük qayğınızın, həssaslığınızın, diqqət və qədirşünaslığınızın növbəti ifadəsi kimi qarşıladım. Bir çox hallarda təkrarlanan bir heyrət ətrafımdakı insanları və təmasda olduğum poeziya həvəskarlarını yenidən maraqlandırdı: Bu qədər hərarətli və bu qədər səmimi, ən başlıcası, bir şairin bütün yaradıcılıq yönlərinə səriştə ilə işıq salan bu dəyərləndirmə məktubunu, görəsən, kim qələmə alıb?*

*Telesöhbətlərinizin birisində böyük bəstəkarımız Tofiq Quliyev də ona ünvanladığınız təbrik məktubunun yüksək sənətkarlıq səviyyəsinə görə şəxsi marağını gizləyə bilməyib, riqqətini bu ifadələrlə bildirməyə çalışdı: "Məktubu kim yazıbsa, gözəl yazıb".*

*Siz onda "altında imzam olan hər yazını ancaq özüm yazıram!" dediniz.*

*Mənə yazdığınız məktub da, şübhəsiz, o cümlədəndir! Sizin leksikonunuzu və cümlədə özünəməxsus söz düzümünüzü indi asanlıqla seçə bilirik».*

**Bəli, Heydər Əliyev mahir söz ustasıdır. Böyük öndər bir neçə sözlə dərin fikirlər ifadə edə bilir:**

**"Mən həyatda üç şeyə arxalanmışam: yaradanıma, zəhmətimə və xalqıma".**

"Şəxsiyyət – xalq"" münasibətinin təhlili göstərir ki, şəxsiyyətin yaradıcısı kütlə və mühitdir. Şəxsiyyət kütlədən törəyir. Toplum şəxsiyyəti yetişdirir. Toplum nə qədər böyük, tələbkar olarsa, ondan törəyən şəxsiyyət də bir o qədər böyük və qüdrətli olar. Biz zaman-zaman torpaq itirdikcə, həm də toplum olaraq parçalanmışıq. Qarabağ düyününün açılmasında Təbriz, Dərbənd, Borçalı bizə nə maddi, nə də mənəvi dəstək verə bilmədi. Zəngəzur, Çöyçə, Dərələyəz, əksinə, düşmənin xidmətində durdu.

Heydər Əliyev fenomeninə **«kütlə-şəxsiyyət»** kontekstində diqqət yetirsək, maraqlı nəticə əldə edərik. Heydər Əliyevə təkcə 8 milyonluq Azərbaycan xalqının yox, 300 milyondan çox sovet xalqının (böyük toplumun) yetişdirməsi

kimi baxmaq düzgün olardı. Nəzərə alsaq ki, H.Əliyev həm də İran və Türkiyə mədəniyyəti, elmi, incəsənəti ilə yaxından tanışdır və bilir, onda bu qənaətə gələrik ki, o, 500 milyonluq toplumun yetişdirməsidir. Bu səbəbdən də o, bizim digər yerli, milli siyasətçilərdən qat-qat üstündür. Onunla bizim lokal siyasətçilər arasındakı fərq 500 milyonun 8 milyona nisbəti tərtibindədir. Bu isə o deməkdir ki, onların 50-60 ilə görə biləcəyini Heydər Əliyev bir ilə görə bilər və görür.

Xalq şəxsiyyəti müdafiə etdiyi kimi, lider də xalqa, onun dəyərli üzvlərinə qayğı göstərməlidir. Keçid dövrünü yaşayan ölkəmizdə talantlı gənclər və xalqın dəyərli övladları, ziyalıları Heydər Əliyevin qayğısı altındadır.

Heydər Əliyevin xalqa münasibəti birmənalıdır: **"Xalq üçün firavanlıq və əmin-amanlıqdan başqa bir arzum yoxdur "** - deyir. Xalqın qa Heydər Əliyevə münasibəti birmənalıdır. 1994-cü ilin oktyabr ayının 4-də Azadlıq meydanına toplaşmış 100 minlərlə insanın əllərində tutduqları rəngarəng plakatlardan biri də **"Heydər - xalq, xalq - Heydər"** plakatı idi. Böyük öndər xalqın bu münasibətini həmişə yüksək qiymətləndirib:

**"1993-cü ildə mən buraya heçnəsiz gəldim nə pulum, nə silahım vardı. Mənim bircə xalqın inandığı *adım* var idi. Bununla da qalib gəldim".**

Bu kəlam 2500 il öncə Aristotel tərəfindən deyilmiş bir kəlamla həmahəngdir: **"Hakimiyyət və pul bir yerdə zəhərli mayedir. Pul dalınca gedənlər hakimiyyətdən, hakimiyyət dalınca gedənlər puldan imtina etməlidir".**

**Lider var ki, o şərqlidir, onu ancaq şərqlilər sevirlər. Lider var ki, o, Qərblidir, onu ancaq qərblilər sevirlər. Heydər Əliyev elə bir şəxsiyyətdir ki, onu eyni məhəbbətlə həm şərqlilər, həm də qərblilər sevirlər. Çünki o, həm Şərq, həm də Qərb düşüncə tərzinə malikdir, başqa sözlə planetar düşüncə sahibidir.**

**Şəxsiyyətin şəxsiyyətə münasibəti azad fikir sahibi və şərqli** Əkrəm Əylislinin: ***"Bu xalq Heydər Əliyevin xalqıdır"*** **kəlamında lakonik verilmişdir.**

**Dünya səviyyəli siyasətçi, qərbli** Madlen Olbrayt **(ABŞ) Heydər Əliyev şəxsiyyətini belə dəyərləndirmişdir:** ***"Cənab Heydər Əliyev Corc Vaşinqtona bərabər şəxsiyyət və Amerikanın böyük dostudur".***

**Heydər Əliyevin qarşıdakı yubileyi ərəfəsində yazdığım bu məqaləni** Mixail Serdyükovun **("Sobesednik", RF) bir fikiri ilə bitirmək istəyirəm:**

"Onun barəsində çox şey məlumdur, həm də heç nə məlum deyil".

**Deməli, Heydər Əliyevin uca şəxsiyyəti daim müxtəlif sənət sahiblərinin diqqət mərkəzində olacaq, kitablar yazılacaq, filmlər çəkiləcək, araşdırılacaqdır. Bu işlərin zamana ehtiyacı vardır.**

Bizi haqq yolu ilə, Allah yolu ilə, Quran yolu, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gələcəyə aparan, yeni tariximizin yaradıcısı, müstəqilliyimizin qoruyucusu, dövlətimizin banisi və qurucusu, xalqımızın sevimlisi, **El atası Heydər Əliyevi** doğum günü münasibəti ilə ürəkdən təbrik edirəm. Öz tarixi missiyasının qalan hissələrini uğurla başa çatdırması üçün ona Allahdan uzun ömür və can sağlığı arzulayıram.